# Atletika üzrə rayon birinciliyi

***Qəbələ Rayon Gənclər və İdman İdarəsinin təşkilatçılığı ilə mayın 8-də Zarağan kənd 2 nömrəli tam orta məktəbdə oğlanlar arasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə həsr edilmiş atletika üzrə rayon birinciliyi keçirilmişdir.***

***Yarışın keçirilməsində məqsəd, Azərbaycanın müstəqilliyini təhlükədən qurtararaq, xalqımızı düşdüyü ağır vəziyyətdən xilas edən ulu öndər Heydər Əliyevin müstəqil, tarazlı və uzaqgörən siyasətini gənc nəslə çatdırmaq, onların vətənpərvərlik tərbiyəsini inkişaf etdirmək, həmçinin atletika idman növünün geniş yayılmasına nail olmaq, bu idman növü üzrə ustalıqlarının artırılması və rayonun yığma komandasının tərkibinin müəyyən edilməsindən ibarətdir.***



Yarışın açılış mərasimində gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov yarışın məqsəd və vəzifələri haqqında məlumat vermiş, ulu öndər Heydər Əliyevin idmanın inkişafı naminə gördüyü işlərdən danışmış və ölkəmizdə idmana göstərilən hərtərəfli dövlət qayğısından söhbət açaraq komandalara uğurlar arzulamışdır.

Beynəlxalq Atletika Federasiyasının qaydalarına əsasən 100 metr, 4x100 metr (estafet), kross (1500 metr) və uzununa tullanma növləri üzrə keçirilən yarışda rayonun ümumtəhsil məktəblərinin 15 komandası iştirak etmişdir. Komandanın tərkibi 5 idmançı və 1 məşqçidən ibarət olmaqla keçirilən yarış komanda və şəxsi birincilik xarakteri daşımışdır.

Yarışın yekununda estafet mərhələsində Qəbələ şəhər 3 nömrəli tam orta məktəbin komandası I yeri tutmuşdur. 100 m məsafəyə qaçışda Orxan Cəfərov, uzununa tullanmada Pərvin Əliverdiyev və 1500 metr (kross) məsafəyə qaçışda Elmin Rəhimov I yeri tutmuşlar.

Yekunda I, II və III yeri tutmuş idmançılara və komandalara gənclər və idman idarəsinin diplomları təqdim edilmişdir.

✍ **Elçin OSMANOV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

# Uğurlarımızın əsası Heydər Əliyev ideyalarından qaynaqlanır

(Əvvəli 1-ci səhifədə).

Bir çoxları dünya bazarlarında neftin giymətinin düşməsi ilə Azərbaycanın bir çox neft ölkələri kimi çox böyük iqtisadi çətinliklərlə üzləşəcəyini zənn edirdilər. Ancaq, Prezident İlham Əliyevin rəhbərliyi ilə əvvəlcədən post neft dövrü üçün görülmüş tədbirlər və bu gün qeyri-neft sahəsinin inkişafı sahəsindəki işlər Azərbaycanı iqtisadi gerilikdən xilas etdi. Ölkəmiz yenə də öz inkişaf yolu ilə inamla irəliləyir.

Bütün sahələrdə inkişafın, tərəqqinin və bu əsasda yaranmış sabitliyin, təhlükəsizliyin nəticəsidir ki, artıq çox mühüm beynəlxalq tədbirlərin keçirilməsi Azərbaycana etibar edilir. Azərbaycanın bu sahədə böyük təcrübəsi var. Son illərdə Bakıda müxtəlif mövzularda beynəlxalq konfrans və simpoziumların, forum və toplantıların, sərği və idman yarışlarının yüksək səviyyədə keçirilməsi buna əyani sübutdür. 1994-cü ildən bəri artıq 24-cü dəfə keçirilməsi nəzərdə tutulan beynəlxalq neft-qaz sərgisini, 2012-ci ilin «Evrovision»unu 2015-ci ilin I Avropa oyunlarını xatırlatmaq kifayətdir.

Bir neçə gündən sonra Vətənimizin paytaxtı Bakı şəhərində keçiriləcək IV İslam Həmrəyliyi Oyunları xüsusilə əlamətdar bir hadisədir. İslam əleyhdarlarının fitvası ilə son illər bir çox İslam dövlətlərində sabitlik pozulmuş, təəssuf ki, məzhəblər arası qarşıdurmanı qızışdırmaq cəhdləri güclənmişdir. Belə bir dövrdə İslam Həmrəyliyi Oyunlarının keçirilməsi misli bərabəri olmayan xeyirxah missiyadır. Bu oyunların Bakıda keçirilməsi Azərbaycanın İslam dünyasında böyük nüfüz sahibi olduğunun göstəricisidir.

✍ **Qüdrət SƏMƏDOV,**
**«Qəbələ».**

# Təbrik edirik

Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının Mərkəzi Elmi kitabxanasında ümummilli lider Heydər Əliyevin anadan olmasının 94-cü ildönümünə və «İslam Həmrəyliyi İli»nə həsr olunmuş «Biz günəşin zərrəsiyik» mövzusunda 2-ci Beynəlxalq konfrans keçirilib. Konfransda «Multkulturalizm həyat tərzimizdir» mövzusunda inşa müsabiqəsinin qalibi kimi Qəbələ şəhər 2 nömrəli tam orta məktəbin şagirdi Nərmin Atayeva da iştirak edib. Nərmin Atayevanın inşa yazısı Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun sertifikatına, müəllif özü isə qaliblər üçün nəzərdə tutulmuş hədiyyələrə layiq görülüb.

Təbrik edirik!

**«Qəbələ».**

# Təsərrüfat xəbərləri



**Soltannuxa** rayonumuzda öz bağ-bağatı, suyu, bulaqları ilə, yerləşdiyi məkanla digər yaşayış məntəqələrindən fərqlənir. Kənd rayonun bəzən aran hissəsi deyilən Düzəncə ərazisi ilə yuxarı dağlıq hissəsinin sərhəddində yerləşir. Soltannuxa milli tərkibi ilə də zəngindir.

Burada azərbaycanlılar və ləzgilər uzun illərdir ki, birlikdə, qaynayıb-qarışmış şəkildə yaşayırlar. Soltannuxa kənd məktəbi rayondakı 4 ən qədim (Qəbələ, Vəndam, Bum, Soltannuxa) məktəblərdən biridir.

Bütün kəndlər kimi Soltannuxa kəndində də təsərrüfat işlərinin qızğın çağıdır. Taxıl sahələrində alaq otlarına qarşı mübarizə tədbirləri görülür. Həyətyanı sahələrdə tərəvəz məhsulları lobya, xiyar, pomidor və sair əvvəlki illərdəkindən daha çox əkilib.

1990-cı illərin sonuna kimi Soltannuxa qabaqcıl baramaçıları ilə tanınan kənd olub. Əhalisi cəmi qırx günə ərsəyə gələn bu qiymətli məhsuldan xeyli pul qazanırdı. Həmin illərdə məhsulları xarici bazarlara çıxarılan, ipəkçilik kombinatlarında işin zəifləməsi baramaçılığa marağı azaltdı və əhali üçün təsərrüfatın bu növü bütünlükdə əhəmiyyətini itirdi.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyri-neft sektorunda işlərin canlandırılmasına göstərdiyi qayğı nəticəsində digər kənd təsərrüfatı sahələri kimi baramaçılıq da yavaş-yavaş canlanmağa başlamışdır. Soltannuxalılar bu il qırx qram barama qurdu toxumu dirildərək bəsləməyi qərara almışlar. Bunun üçün ərazidə kifayət qədər yem bazası var. Gələcəkdə daha çox barama qurdunun bəslənməsi və məhsulun artırılması məqsədilə ötən ilin payızında 500 ədəddən çox toxmaçar tingi əkilib. Bitiş yaxşı alınıb, becərmə aparılır. Artıq gələn ildən bu tinglərin yarpaqlarından barama qurdlarının bəslənməsində istifadə olunacaqdır.

* * *

**Nic** qəsəbəsi fındıq məhsulu ilə tək rayonda deyil ölkədə məşhurdur. Yeraltı suların torpağın üst qatında olması, nəmişlik fındıq bitkisi üçün çox gözəl şərait yaradır. Fındıq məhsulunun qiymətinin yüksəlməsi qəsəbə sakinlərini yeni bağların salınmasına ruhlandırmışdır. Son bir ildə qəsəbədə 30 hektardan çox ərazidə yeni fındıq bağları salınıb. Hazırda həmin bağlarda becərmə işləri gedir.

* * *

Kənd təsərrüfatı məhsulları istehsalı qeyri-neft sektorunda aparıcı sahəyə çevrilir. Bu təbidir. Ona görə ki, kənd təsərrüfatı məhsulları əhalinin ərzaq təhlükəsitzliyini təmin etməklə yanaşı xaricə valyuta axınını azaldır, xarici valyuta daxil olmalarını artırır.

**Böyük Əmili** kənd sakinləri Şikar və Tərlan Məmmədov qardaşları bu il ilk dəfə olaraq özlərinə məxsus pay torpağında qiymətli ərzaq məhsulu olan qarabaşaq (qreçka) əkiblər. Yüksək aqrotexniki qaydada əkin aparılması, becərmə tşlərinin yaxşı təşkili və bitkilərin vəziyyəti göstərir ki, əsasən Amerika qitəsi və Uzaq şərqdə əkilib biçilən bu dənli bitki vətənimizdə də yüksək məhsul verəcəkdir.

**«Qəbələ».**

# Arıçılıq gəlirli sahədir

***Havaların isinməsi, ağacların çiçəkləməsi ilə arıçılıqda yeni mövsüm başlanır. Arıçılar arı ailələrinin qış «libasını» çıxarır, onları yaza, yaya hazırlayırlar. Arı yuvaları təmizlənir, tələf olmuş arılar tullanır, xəstəliyə yoluxması ehtimalı olan arı ailələrində lazımi profilaktiki işlər aparılır.***





Uzun illər arıçılıqla məşğul olan Bum qəsəbə sakini, təqaüddə olan müəllim Emin Ədilovdan arıçıların yaz qayğıları barədə danışmağı xahiş etdik. Emin müəllim:

—30 ildən artıqdır ki, arıçılıqla məşğulam. Çox maraqlı sahədir. İnanırsınızmı, arılar elə bil danışırlar. Əsl arıçı arıların hərəkətləri ilə, vızıltıları ilə onların nədən narahat olduğunu, nəyə ehtiyacları olduğunu başa düşür. Yazın gəlməsi ilə əlaqədar bütün arı pətəklərini nəzərdən keçirmişəm, lazım gələn tədbirləri görmüşəm. Yaz yaxşı gəlib. Bundan sonra yağıntılar çox olmasa, inşallah məhsulumuz bol olacaq. Mən öz arılarıma baxmaqla bərabər bu işlə yeni məşğul olmağa başlayanlara da bu sahədə işlərini qurmaqda kömək edirəm.

Arının məhsulu olan bal, arı südü ən qiymətli qida və şəfaverici dərmandır. Deyirlər bal 1000 dərdin dərmanıdır. Mən buna inanıram. Arıçılıq üçün əlverişli şəraiti olan rayonumuzda hamını bu qiymətli sahə ilə məşğul olmağa dəvət edirəm. Bir də onu xatırladıram ki, peyğəmbərimiz Həzrət Məhəmməd (s.ə.s)də hədisdərində dönə-dönə balın xeyirləri haqqında qeyd edib.

✍ **Rais RƏŞİDOV,**
**«Qəbələ».**